ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 4. CİLT, 1. SAYI, 2020, 120 - 127. S., TÜRKİYE

# AZƏRBAYCAN ƏFSANƏLƏRİNİN SÜJET XÜSUSİYYƏTLƏRİ

***Elnarə ƏMİRLİ*** *

**Özət**

Epik folklorun kiçik həcmli janrı olan əfsanələr özünəməxsus süjet quruluşuna malikdir. Əfsanələr bir qayda olaraq epizodik hadisədən ibarət olur. Əfsanələr etioloji xüsusiyyətə malik olduğu üçün həmin epizodik hadisə də yaranışın gerçəkləşməsi ilə nəticələnir. Əfsanə süjetini öyrənmək üçün yaranışın əsasında dayanan hadisəni: baş vermiş möcüzənin səbəblərini, möcüzənin şəkillərini və yaranmış məfhumu öyrənmək lazımdır.

İstinad etdiyimiz bir çox mənbədən Azərbaycan əfsanələrinə xas 163 süjet müəyyən etmişik. Süjetlərin bölgüsü və təsnifi zamanı yaranışı şərtləndirən səbəblər əsas götürülmüşdür. Bu səbəblər, həmçinin qəhrəmanın xarakteri ilə sıx bağlıdır.

Əfsanə süjet tiplərinin təsnifi qəhrəmanların xarakterinə görə aparılmışdır. Daha dəqiq desək, əfsanə qəhrəmanlarının əməlləri yaranışı gerçəkləşdirən başlıca amildir. Qəhrəmanın əməlinin xarakterindən qaynaqlandığını nəzərə alsaq, əfsanə qəhrəmanının xarakterinə görə dəyərləndirilməsi əfsanə süjetinin tədqiqində və təsnifində vacib məsələdir.

**Açar Sözlər:** Əfsanə Süjeti, Əfsanə Qəhrəmanı, Epizodik Hadisə, Süjetlərin Təsnifi, Süjet Tipləri.

# AZERBAYCAN EFSANELERİNİN KONU ÖZELLİKLERİ

**Özet**

Epik folklorun küçük hacimli türü olan efsaneler kendine özgü konu yapısına sahiptir. Efsaneler, istisnasız olarak epizodik olaylardan oluşmaktadır. Efsaneler neden bilimsel özelliklere sahip olduğu için bu epizodik olay da varoluşun hayata geçmesi ile sonuçlanır. Efsane konusunu öğrenmek için varoluşun merkezinde duran olayı; ortaya çıkan mucizenin nedenlerini, mucizenin şekillerini ve oluşmuş kavramı öğrenmek gerekir.

Atıfta bulunduğumuz pek çok kaynaktan Azerbaycan efsanelerine özgü 163 konu belirledik. Konuların tasnifi ve tasnif zamanı belirlenirken oluşumu şartlandıran nedenler esas alınmıştır. Bu nedenler, kahramanın karakteri ile de oldukça bağlantılıdır.

Efsane konu tiplerinin tasnifi kahramanların karakterine göre yapılmıştır. Daha doğrusu, efsane kahramanlarının edimleri oluşumu gerçekleştiren başlıca etkendir. Kahramanın ediminin karakterinden kaynaklandığını düşünürsek, efsane kahramanının karakterine göre değerlendirilmesi, efsane konusunun araştırılmasında ve tasnifinde önem arz etmektedir.

**Anahtar Kelimeler:** Efsane Konusu, Efsane Kahramanı, Epizodik Olay, Konuların Tasnifi, Konu Tipleri.

* Aspirant (Doktora Öğrencisi), Azərbaycan Milli Elimlər Akademiyası, Folklor İnstitutu, el-mek: elnara.amirli@mail.ru

ORCİD ID: https://orcid.org/0000-0002-9050-9139

## PLOT FEATURES OF AZERBAIJAN LEGENDS

**Abstract**

Legends, a small genre of epic folklore, have a unique plot structure. Legends usually consist of episodic events. Because legends have an etiological character, this episodic event also results in the realization of creation. In order to study the plot of a legend, it is necessary to study the underlying event of creation: the causes of the miracle that took place, the methods of the miracle, and the concept that emerged.

We have identified 163 plots specific to Azerbaijani legends from many sources. During the division and classification of plots, the reasons for their emergence were taken into account. These reasons are also closely related to the character of the protagonist.

The classification of legend plot types is based on the character of the heroes. To be more precise, the actions of the heroes of the legend are the main factor in the creation. Given that the hero's actions stem from his character, the study of the character of the hero is an important issue in the study and classification of the plot of the legend.

**Key Words:** Legend Plot, Legend Hero, Episodic Event, Classification Of Plots, Plot Types.

**Giriş**

Epik folklorun kiçik həcmli janrı olan əfsanələr özünəməxsus süjet quruluşuna malikdir. Əfsanələr bir qayda olaraq epizodik hadisədən ibarət olur. Əfsanələr etioloji xüsusiyyətə malik olduğu üçün həmin epizodik hadisə də yaranışın gerçəkləşməsi ilə nəticələnir. Belə ki, qarşıya çıxan hər hansı gerçəkliyə, onun mənşəyinə olan maraq əfsanə süjetinin işə düşməsi üçün zəmin yaradır: bu zəmin həm də əfsanənin söyləndiyi konteksti formalaşdırır. Söyləyici uyğun süjeti seçir və söyləyir. Əldə etdiyimiz mətnlərə istinad edərək deyə bilərik ki, əfsanə süjetinin inkişaf ardıcıllığı aşağıdakı mərhələlərdən ibarətdir:

1. **Möcüzəni şərtləndirən səbəblər;**
2. **Möcüzəli hadisə;**
3. **Yaranmış varlıq.**

Əfsanə süjetini öyrənmək üçün yaranışın əsasında dayanan hadisəni: baş vermiş möcüzənin səbəblərini, möcüzənin şəkillərini və yaranmış məfhumu öyrənmək lazımdır. Qeyd edək ki, əfsanədə möcüzəli hadisənin başvermə səbəbləri müxtəlifdir. Bundan başqa, personajların vəziyyəti, xarakteri və digər xüsusiyyətləri möcüzəli hadisənin baş verməsində vacib rol oynayır. Bütün bu ünsürləri və onlar arasındakı əlaqəni öyrənməklə əfsanə süjeti haqqında aydın təsəvvür əldə etmək mümkündür.

Hadisələr qəhrəmanın timsalında təqdim olunduğu üçün süjet bir çox hallarda qəhrəmanın təqdimi ilə başlayır. “*Diyillər, Günəş və Ay bacı-qardaş imiş*” (AFA Şəki folkloru, 2000: IV, 39), *“Günəşlə Ay yaxın dostiymişdər”* (AFA Şəki folkloru, 2000: IV, 41), *“Bənövşəynən qızılgül iki bajıdı dayna”* (Qarabağ: folklor da bir tarixdir, 2013: VI, 35). *“Deyir ki, bir gəlin varmış. Bunun uşağı olmurmuş”* (Qarabağ: folklor da bir tarixdir, 2013: 40), *“Qədim əyyamlarda bir əjdaha varmış”* (AFA Şəki folkloru, 2000: IV, 41), *“Deyillər ki, qədimlərdə Gül gözəlliyi ilə dünyada tayı-bərabəri olmayan qızıymış”* (AFA Şəki folkloru, 2000: IV, 114), *“Diyirlər ki, iki yetim qardaş variymiş – İsax və Musax adında”* (AFA Şəki folkloru, 2000: IV, 115), *“Deyillər, canavar peyğəmbərin iti oluf, ilan balığı da onun tütəyi*” (Qarabağ: folklor da bir tarixdir, 2012: III, 49), *“Eyib baba yüz altmış-yüz yetmiş il bundan qabaq Ərəb Qədim kəndində yaşayıb”* (Xəlilov, 2006). Bilirik ki, hadisələr öz ifadəsini surətlərdə tapır. Şifahi nümunələrdə də söyləyici hadisəni surətlər vasitəsilə çatdırır. Əfsanənin əvvəlində təqdim olunan hadisə həmçinin qəhrəman haqqında da təsəvvür yaradır.

Əfsanələrdə əvvəlcə qəhrəmanlar tanıdılır, ardınca vəziyyət təqdim olunur. Əfsanələr informativ xarakter daşıdığı üçün süjet də əlavə təfərrüatlara yol vermədən birbaşa yaranışla əlaqədar hadisənin təqdimi ilə başlayır. Belə ki, əksər əfsanələrdə dinləyicinin fikri birbaşa hadisəyə yönləndirilir. Təsvir olunan hadisənin başvermə şərtləri (məkanı və şəraiti) mətndən-mətnə dəyişir. "*Günlərin bir günü Ayın anası qonşu ilə çörək yapırmış"* (Azərbaycan mifoloji mətnləri 1988: 36), "*Peyğəmbərnən Əli Əleyhissəlam ağacın dibində oturub söhbət eliyirmişdər"* (Qarabağ: folklor da bir tarixdir 2013: V, 25), *"Peyğəmbər deyif, hər küşdə evladını götsün, çıxsın gəlsin meydana. Hərə birini alıf dalına gedifdi"* (Qarabağ: folklor da bir tarixdir, 2012: III, 28) və s.

Bəzi mətnlərdə yaranmış varlığın təqdimi ekspozisiya rolunu oynayır. Tutaq ki, "*Şayıb-Qayıb dağının haça zirvəsinin hər birində iki məzar var*" (Xəlilov, 2006), "*Əli bulağı çox möcüzəli bir bulaxdı"* (Qarabağ: folklor da bir tarixdir 2013: V, 29), *"Bizdə Əli bulağı varıydı. And olsun Allaha ki, o bulax müqəddəs bir bulağıydı"* (Qarabağ: folklor da bir tarixdir, 2012: III, 83), "*Ayın üzündəki ləkələr Fatma nənə – canım qurban olmuşun əl izidi. Mən belə eşitmişəm*" (Qarabağ: folklor da bir tarixdir, 2013: VI, 39). Bir qisim əfsanələr isə şəraitin təsviri ilə başlayır: "*Qədim zamannarda göyün üzünü qara bulutdar tutufmuş. Hər tərəf qarannıx, zülmət kimiymiş*" (Qarabağ: folklor da bir tarixdir, 2012: III, 31). Gətirdiyimiz nümunələr əfsanə süjetinin müxtəlif şəkildə başlamasını göstərir.

**Azərbaycan əfsanələrinin süjet tipləri**

İstinad etdiyimiz 60-dan çox mənbədən Azərbaycan əfsanələrinə xas 163 süjet müəyyən etmişik. Süjetlərin bölgüsü və təsnifi zamanı yaranışı şərtləndirən səbəblər əsas götürülmüşdür. Bu səbəblər, həmçinin qəhrəmanın xarakteri ilə sıx bağlıdır. Tutaq ki, personaj pis əməlinə görə cəzalandırılbsa, həmin süjetlər günahkarlar, çarəsiz vəziyyətdə qalıb dua edib xilas olursa, həmin süjetlər xilasolmalar qrupuna daxil edilmişdir. Bundan başqa, elə əfsanə süjetləri vardır ki, iki və daha çox yaranışdan bəhs etdiyi üçün kəsişən məqamlara da rast gəlmək olur. Ona görə də təsnifdəki bəzi şərtiliklər qaçılmazdır.

Azərbaycan əfsanə süjetlərini məzmuna görə 4 qrupa bölmək olar: müqəddəslər, xilasolmalar, günahkarlar, mübahisələr. Müqəddəslərdən bəhs edən süjetlər ümumi süjetlərin 35,6 %-ni (58 süjet), xilasolmalar haqqında olan süjetlər 33,7 % -ni (55 süjet), günahkarlar haqqındakı süjetlər 22,7 %-ni (37), mübahisələrə həsr olunmuş süjetlər 8 %-ni (13 süjet) təşkil edir.

Qeyd edək ki, əfsanə süjetlərinin öyrənilməsi ilə belə bir nəticəyə gəldik ki, göstərilən 4 qrupa aid süjetləri ortaq əlamətlərinə görə qrup daxilində yenidən təsnif etməyə ehtiyac vardır. Süjetlərin təsnifatı zamanı qarşılaşdığımız ikinci problem bəzi süjetlərin məzmuna görə bir neçə qrupa aid edilməsinin mümkünlüyü idi. Süjetlərin təsnifatında, əsasən, qəhrəmanın vəziyyəti, xarakteri və baş verən hadisədə iştirakı nəzərə alınmışdır. Bütün bu sadaladığımız xüsusiyyətlər həm də möcüzəli hadisənin səbəbi kimi də özünü göstərir. Bir çox süjetlərin məzmun oxşarlığını nəzərə alsaq, bəzi bölgülər şərti xarakter daşıya bilər. Bu kəsişmələri aradan qaldırmaq üçün biz bəzi süjetləri daha çox uyğun olan qrupa daxil etmişik. Süjetlər haqqında məlumat verərkən hər süjetin etioloji xüsusiyyəti də statistik cəhətdən dəyərləndirilmişdir. Qeyd edək ki, eyni süjetin müxtəlif variantlarında bir çox hallarda ayrı-ayrı yaranışlar gerçəkləşir. Həmçinin təketiologiyalı və çoxetiologiyalı əfsanələrin mövcudluğunu nəzərə alsaq, yaranışların kəmiyyəti süjetlərin kəmiyyətindən çoxdur.

**I Müqəddəslər haqqında**

Bu qrupa daxil etdiyimiz süjetlərin əksəriyyəti müxtəlif söyləyicilər tərəfindən ayrı-ayrı müqəddəslərə aid edilir. Tutaq ki, Məhəmməd peyğəmbərdən bəhs edən süjet başqa variantında Həzrət Əliyə uyğunlaşdırılmışdır. Başqa sözlə, müqəddəslər haqqında xeyli ortaq süjetlər vardır. Biz yalnız bir müqəddəsə aid olan, başqaları haqqında söylənməyən süjetləri qrup şəklində salmış, təkrarlanan süjet tiplərini isə ümumi şəkildə vermişik. Qrup daxilində yalnız bir

müqəddəs haqqında söylənən süjetləri ayırmış və dəqiq adlandırmış, ortaq süjetləri isə ayrı alt qrupa daxil edərək "digər müqəddəslər" adı ilə vermişik. Müqəddəslərlə bağlı müəyyən etdiyimiz 58 süjeti belə təsnif etmək olar:

**1. Nuh peyğəmbər.** 58 süjetin 9-u Nuh peyğəmbər haqqındadır. Bir süjetin 3 müxtəlif variantında iki yaranış, digər 8 süjetdə isə bir yaranışdan bəhs olunur. Varinatlar da daxil olmaqla 9 süjetdən 6-sı quşa, 1-i daşa, 9-u heyvanlara, 2-si isə mənəvi məsələlərə aid yaranışlardan bəhs edir.

**2. Məhəmməd peyğəmbər.** Məhəmməd peyğəmbərdən bəhs edən 3 süjetin hamısı təketiologiyalıdır. Bu süjetlərdən 2-si həşəratlara, 1-i göy cisminə (Ay), 1-i isə bitkiyə aid olan yaranış haqqındadır. Variantlar da daxil olmaqla 4 yaranışdan 1-i peyğəmbərin tərinin yerə düşməsi, 1-i alqışı, 1-i qarğışı, 1-i isə peyğəmbərə oxunan dua nəticəsində gerçəkləşir.

**3. Həzrət Əli.** Həzrət Əli haqqında 10 süjet müəyyən etmişik. Həzrət Əli ilə bağlı süjetlərin əksəriyyəti hər hansı məkanda müəyyən izin yaranışından bəhs edir. Variantlar da daxil olmaqla 10 süjetdən 3-ü çoxyaranışlı, digər süjetlər isə təkyaranışlıdır. Bu süjetlərin 8 müxtəlif variantlarında məkanlarda mövcud olan izlərin, 3 variantda parçalanmış daşların, 2-də su hövzələrinin, 1-də isə ziyarətgahın yaranışından danışılır. Naxcıvandan toplanmış bir əfsanədə söyləyici Həzrət Əli surətini Koroğlu surəti ilə əvəz edir (AFA Naxçıvan folkloru, 2011: XXIII, 86).

**4. Pir baba.** Qeyd edək ki, bir qisim süjetlərdə Pir baba personajı iştirak edir. Bu süjetlərin hamısı əjdahanın insanlara ziyan verməsindən bəhs edir. Şəkidən toplanmış iki örnəkdən birində söyləyici "Pir baba"nı "Babarat baba" ilə (Şəki folklor örnəkləri, 2014: II, 171), ikincidə Xıdır İlyas ilə (AFA Şəki folkloru, 2000: IV, 41) əvəz edir. Digər süjetlər isə "Pir baba" ilə bağlıdır. Şəkidən və Gəncəbasar bölgəsindən toplanmış örnəklərə görə, əjdahanı cəzalandıran göstərilən personajlardır. Naxçıvandan toplanmış iki nümunədən birində cəza verən Allahdır. İkinci süjetə görə isə cəzalandıran tərəf aydın göstərilmir. Variantlar da daxil olmaqla "Pir baba"dan bəhs edən 4 süjetin 2-də bir yaranış, digər 2 süjetdə isə iki yaranış göstərilir. Eyni süjetin 6 variantından 3-ü tək (daşın yaranışı), digər 3-ü isə (daşın və su hövzəsinin, daşın və daşdakı izin yaranışı) çoxetiologiyalıdır. Belə ki, bu süjetlərin 8 variantında daşların, 2-də daşlardakı izlərin, 1-də su hövzəsinin, 1-də əjdahanın yaranışından bəhs olunur.

**5. Süleyman peyğəmbər.** Süleyman peyğəmbər haqqında 3 süjet müəyyənləşdirdik. Bu süjetlərin hamısı canlıların yaranışından bəhs edir və təkyaranışlıdır. Müəyyən etdiyimiz 3 süjetdə 5 yaranış gerçəkləşir. Süleyman peyğəmbərdən bəhs edən bütün süjetlərdə heyvanların və quşların (həmçinin onlara aid hər hansı əlamətin) yaranışından bəhs olunur.

Digər müqəddəslərdən bəhs edən süjetlərin sayı çox olmadığına görə bu süjetlər haqqında ayrıca bölmələr şəklində məlumat verməyə ehtiyac duymadıq. Qalan 29 süjet Musa peyğəmbər, Yaqub peyğəmbər, İbrahimxəlil peyğəmbər, Xızır peyğəmbər, Seyid İbrahim ağa, Ağası baba və adı deyilməyən digər müqəddəslərdən bəhs edir. Bu süjetlərin 8 variantı çoxetiologiyalı, digərləri isə təketiologiyalıdır. Daşların yara-nışından 5, bitki örtüyünün yaranışından 13, mənəvi məsələlərə aid yaranışlardan 3, insana aid yaranışdan 1, su hövzələrinin yaranışından 6, heyvanların və quşların yaranışından 15, əşyanın yaranışından 2 süjetdə bəhs olunur. Adı deyilməyən peyğəmbərlər haqqında 10 süjet müəyyən etdik. Bu süjetlərdən 4-ü quşa, 2-si bitkiyə, 1-i balığa, 1-i ağaca, 1-i həşərata, 1 süjet isə mənəvi məsələlərə aid yaranışlar haqqındadır.

Əfsanə süjetlərini incələyərkən eyni süjet daxilində iki fərqli süjetin birləşməsi ilə qarşılaşıq. Bu hadisə folklorşünaslıqda "kontaminasiya" adlandırılmışdır. N.Vedernikova bu hadisəni "mexaniki və yaradıcı kontaminasiyalar" kimi təsnif edərək, mexaniki kontaminasiyaların təsadüfi xarakter daşıdığını və bu zaman süjet birləşmələrinin səbəbsiz baş verdiyini vurğulayır. (Ведерникова, 1972: 151). İ.Rüstəmzadəyə görə, yaradıcı kontaminasiyalar çox zaman tərəflərdən birinin zərərə məruz qalması hesabına baş verir

(Rüstəmzadə, 2013: 53). Kontaminasiyalı əfsanə süjetlərində isə personaj zərərə məruz qalmır, ancaq onun fəaliyyəti adi süjetlərdəki fəaliyyət ilə təzad yaradır. Çobanlar haqqındakı süjetə görə, çoban vədinə xilaf çıxaraq cəzalandırılırsa, kontaminasiyalı süjetdə çoban vədinə əməl edir (Azərbaycan mifoloji mətnləri 1988: 84). Qeyd edək ki, kontaminasiyalar eyni qrup daxilindəki süjetlərə aid olur.

Müqəddəslərdən bəhs edən iki əfsanədə kontaminasiya hadisəsi ilə qarşılaşdıq. Süjetə görə, əjdaha kəndin suyunu qurudub qaçır. 1) Pir baba onu nizə ilə vurub daşa döndərir (AFA Gəncəbasar folkloru, 2004: IX, 86); 2) Qayaya nizə atır, onun izindən su çıxır (Qarabağ: folklor da bir tarixdir, 2013: IV, 63). Kontaminasiya (Şəki folklor örnəkləri, 2014: II, 170). İkinci kontaminasiya Həzrət Əli ilə bağlı süjetdə qarşımıza çıxdı. 1) Həzrət Əli qılıncını dağa çəkir, daş atır, həmin yerdən su çıxır (Gədəbəy folklor örnəkləri, 2016: I, 45). 2) Həzrət Əli görür ki, dağ aşır, əli ilə dağı saxlayır (Qarabağ: folklor da bir tarixdir, 2012: III, 84, 86). Kontaminasiya (Qarabağ: folklor da bir tarixdir, 2012: III, 83), (Qarabağ: folklor da bir tarixdir, 2013: V, 29). Göstərilən bütün süjetlər ayrı-ayrı əfsanələrdə müstəqil şəkildə mövcuddur.

**II Xilasolmalar haqqında**

Bir qisim süjetlər çətin vəziyyətə düşənlərin xilas olmasından bəhs edir. Bu süjetlərə görə, personajın "xilasolma" istəyi müxtəlif səbəblərdən gerçəkləşir. Həmin səbəbləri nəzərə alaraq müəyyən etdiyimiz 55 süjeti də məzmun yaxınlığına görə belə təsnif etmək olar:

**1. Uğursuz sevgi haqqında.** Xilasolmalar ümumi başlığı altında ən çox süjet uğursuz sevgidən bəhs edir. "Uğursuz sevgi" süjetlərinin sayı 14-dür. Bu süjetlərin bir qismində xilasolma təqib səbəbindən gerçəkləşir. Bu əlamətinə görə də sözügedən süjetləri iki qrupa bölmək olar:

**1a. Sevgi və əngəl.** Bu mövzulu süjetlərin sayı 9-dur. Bu süjetlərdə sevənlərin qovuşması yoluna çıxan əngəllərdən və çarəsiz vəziyyətdə olanların xilasolma arzusunun gerçəkləşməsindən bəhs olunur. Bu süjetlərin 10 variantında yalnız bir yaranışdan danışılır. 3 variantda isə iki yaranış haqqında məlumat verilir. 2 variantda daşların, 5-də bitki örtüyünün, 2-də su hövzəsinin, 4-də quşların yaranışından bəhs olunur. 1 süjetin 4 variantından yalnız 1-i kosmoqonik məzmunludur.

**1b. Təqib olunan sevgililər.** Sevgi və əngəl mövzulu süjetlərin bəzisində təqib motivi ilə qarşılaşırıq. Sevənlər, onların izdivacına qarşı çıxanların təqbinə məruz qalırlar. Ona görə də bu süjetləri ayrıca alt qrupa daxil edirik. Təqib olunan sevgililər haqqında 5 süjet müəyyən etdik. Bu süjetlərin 3 variantında iki yaranış, digər variantlarda isə bir yaranışdan bəhs olunur. Süjetlərin 6 variantında daşların, 3-də bitki örtüyünün, 3-də isə quşların yaranışı haqqında danışılır. Bir süjetdə isə toponimin yaranışı izah olunur.

**2. Düşmən təqibi.** Bu səbəbdən xilas olmaq istəyi ilə 3 süjetdə qarşılaşırıq. Bu süjetlərə görə, xilas olmaq istəyənləri təqib edənlər yadelli düşmənlərdir. Bu süjetlərin əldə etdiyimiz bütün variantlarında bir yaranış haqqında danışılır. Düşmən təqibindən bəhs edən süjetlərin bütün variantlarında daşların yaranışından bəhs olunur.

**3. Utanc.** Bu səbəbdən xilas olanlar haqqında qarşılaşdığımız 6 süjetin hamısı bir yaranışdan bəhs edir. 1 süjetdə xilasolma səbəbi xarici görünüşündə qüsur olanların istəyi ilə bağlıdır. Bu mövzulu süjetlərin 2 variantında daşın, 3-də quşların və heyvanların, 1-də təpənin, 1-də isə su hövzəsinin yaranışından danışılır.

**4. Qorxu.** Bu səbəbdən xilasolmaya 6 süjetdə rast gəlirik. Bu süjetlərin yalnız birində eyni kateqoriyadan olan iki yaranış (daş) göstərilir. Süjetlərin 6 variantında daşların, 5-də isə quşların yaranışı haqqında danışılır.

**5. Zülm.** Zülmə məruz qalanaların xilasolma istəyi ilə 6 süjetdə qarşılaşırıq. Bu süjetlərin hər birində bir yaranışdan bəhs olunur. Bir süjetlərin bir variantında daşın, 2-də quşların, 3-də bitki örtüyünün, 1-də su hövzəsinin, 1-də isə toponimin yaranışından bəhs olunur.

**6. Digər xilasolmalar.** Bu haqda 20 süjet aşkar etmişik. Bu süjetlərin yalnız 2-i çoxetiologiyalıdır. Digər 18 süjetin müxtəlif 9 variantında quşların və heyvanların, 7-də bitki örtüyünün, 3-də daşların, 1-də su hövzəsinin, 1-də ziyarətgahın, 1-də toponimin yaranışından söz açılır. Üç süjetdə isə kosmoqonik məzmunlu yaranışlardan danışılır. Bu qrupa aid etdiyimiz süjetlərdə personajın xilasolma arzusunun səbəbi xeyirsiz ovlad, peşmançılıq, yorğunluq və s.-dir.

**III Günahkarlar haqqında**

Günahkarlardan bəhs edən 37 süjetdə yaranış cəzalandırma prosesinin nəticəsi kimi özünü göstərir. Cəzalandırmalaraın səbəbləri isə müxtəlifdir. Xatırlayaq ki, xilasolmalar qrupuna daxil etdiyimiz süjetlərdə personaj hər hansı çətin vəziyyətdən xilas olmaq üçün öz arzusu ilə çevrilməyə, yaxud dəyişilməyə məruz qalır. Günahkarlar qrupuna aid etdiyimiz süjetlərdə isə personaj hər hansı pis əməlinə görə fövqəltəbii qüvvələr tərəfindən cəzalandırılır. Verilən cəzanın səbəblərinə görə günahkarlar qrupununun daxilində aşağıdakı kimi bölgü aparmaq olar:

**1. Pintilik.** Bu mövzu haqqında müəyyən etdiyimiz 4 süjetin hər biri bir yaranış haqqında məlumat verir. Bu süjetlərdən 2-də daşların, 1-də heyvanın, 1-də isə göy cisminin yaranışı haqqında danışılır.

**2. Xəsislik**. Bu xüsussiyyətlə bağlı cəzalandırılanlar haqqında 4 süjet müəyyən etdik. Bu süjetlərdə cəzanın səbəbi xəsislikdir. Xəsislikdən bəhs edən iki süjetin hər birinin bir variantı çoxetiologiyalı, digər süjetlər isə təketiologiyalıdır. Bu süjetlərin 8 variantında daşların, 3 variantında heyvanların yaranışından danışılır. 1 süjetdə isə kosmoqonik mövzulu yaranışdan (göyün yerdən uzaqlaşması) bəhs olunur.

**3. Çörəyə hörmətsizlik.** Bu haqda 3 süjet aşkar etdik. Bu süjetlərin variantlarının hər biri bir yaranışdan bəhs edir. 2 variantda kosmoqonik məzmunlu yaranış, 1-də daş, 1-də quş, 1-də heyvanın yaranışı haqqında danışılır.

**4. Məsuliyyətsizlik.** Bununla bağlı 5 süjet qarşımıza çıxdı. Bu süjetlərin hər birinin yalnız bir variantına rast gəldik. Bir süjetdə daşın, 1-də heyvanın, digər 2-də isə Ayın və Günəşin yaranışından bəhs olunur.

**5. Oğurluq.** Bu haqda 6 süjet müəyyən etdik. Onlardan 1-də müxtəlif kateqoriyadan olan iki yaranışdan danışılır (daşın və Ayın yaranışı). Digər süjetlərdən 3-ü daşın, 1-i insanın, 1-i isə samanyolunun yaranışından bəhs edir.

**6. Kələk.** Bu mövzu ilə 3 süjetdə qarşılaşdıq. Hər biri təketiologiyalı olan bu süjetlərin 2-i quşa,1-i marala aid yaranışdan bəhs edir.

**7. Qısqanclıq.** Bununla bağlı müəyyən etdiyimiz təketiologiyalı 2 süjetin hər ikisi bitki örtüyünün yaranışından bəhs edir.

**8. Nankorluq.** Bu mövzudakı 1 süjet çobanların verdikləri vədə xilaf çıxmasından bəhs edir**.** Həmin süjetin 8 variantının hər birindən daşın etiologiyasından bəhs olunur. Bu mövzudan bəhs edən 2 qırıq süjetli əfsanə də aşkar etdik.

**9. Digər günahlar.** Diğər günahlar haqqında 9 süjetlə qarşılaşdıq. Hər biri bir yaranışdan bəhs edən bu süjetlərin müxtəlif variantlarında 4 kosmoqonik məzmunlu, 5 quş və heyvanlar, 1 insan haqqında yaranışdan söz açılır. Digər süjet isə toponimin yaranışı haqqındadır.

Günahkarlar haqqında bir süjetdə kontaminasiya hadisəsi ilə qarşılaşdıq. Vədinə xilaf çıxan çoban haqqındakı süjetə söyləyici ikinci bir süjeti calamışdır. Söyləyici ikinci süjetə keçidi məkan ünsürü üzərindən edir. Həmin süjetin müstəqil variantında çoban verdiyi vədə əməl etmir, qurban kəsmir, buna görə də cəzalandırılaraq daşa çevrilir (AFA Borçalı-Qarapapaq folkloru, 2011: XXII, 55). Burada isə söyləyici çobanın vədinə əməl edib qurbanı kəsdiyini deyir. İkinci süjetə görə, bir gəlin yaranmış həmin su hövzəsinin gözünü öz çomağı ilə bulandırır, ona görə də cəzalandırılır və daşa dönür. Kontaminasiya (Azərbaycan mifoloji mətnləri, 1988: 84). Əgər bu süjetdə çoban digər süjetlərdəki kimi, vədinə xilaf çıxsaydı, özü daşa dönməli və süjet bitməli idi. Söyləyici yaradıcı şəkildə birinci süjetin sonunu dəyişir və ikinci süjetin dövriyyəyə girməsinə zəmin yaradır. Kontaminasiyalı süjetdə isə cəzalandırılan çoban yox, suyu bulandıran gəlindir.

**IV Mübahisələr**

Azərbaycan əfsanə süjetlərinin içərisində sayca ən az olan süjetlər mübahisələrlə bağlıdır. Bu süjetlərdə yaranış baş verən mübahisələr səbəbindən gerçəkləşir. Həmin süjetlərə görə, mübahisələrin səbəbi dəyişkəndir. Mübahisə mövzulu ən çox süjet Ay və Günəşlə bağlıdır. Mübahisələrlə bağlı müəyyən etdiyimiz 13 süjetin 8-i iki yaranışdan bəhs edir. Digər süjetlər isə təketiologiyalıdır. Bu süjetləri belə qruplaşdırmaq mümkündür:

1. **Ailə mübahisələri.** Bu haqda məlum 6 süjetdən 4-ü Ay və Günəşlə bağlı, 2-si isə dağlara aid yaranışdan bəhs edir.
2. **Sevənlərin mübahisələri.** Bu mövzu haqqında 5 süjetin hər biri Ay və Günəşə aid etiologiyanı göstərir.
3. **Qonşu mübahisələri.** Qonşu mübahisələri mövzusunda olan 2 süjetdən 1-i dağ, 1-i isə kosmoqonik məzmunlu yaranışdan bəhs edir.

**Nəticə**

Azərbaycan əfsanələrinin öyrənilməsi həm də əfsanə süjetlərinin özünəməxsusluqlarının aşkara çıxarılması deməkdir. Mətnlərin kütləvi şəkildə mənimsənilməsi əfsanə süjetlərinə məxsus qəlibləri, süjetin inkişaf mərhələlərini, motivləşmə qanunauyğunluqlarını müəyyən etməyə imkan verir.

Əfsanə süjet tiplərinin təsnifi qəhrəmanların xarakterinə görə aparılmışdır. Daha dəqiq desək, əfsanə qəhrəmanlarının əməlləri yaranışın gerçəkləşməsini şərtləndirən başlıca amildir. Qəhrəmanın əməlinin xarakterindən qaynaqlandığını nəzərə alsaq, əfsanə qəhrəmanının xarakterinə görə dəyərləndirilməsi əfsanə süjetinin tədqiqində və təsnifində vacib məsələdir. Əfsanə qəhrəmanının, möcüzəli hadisənin, çevrilmənin xarakterik xüsusiyyətlərinin təsnifi haqda başqa bir məqalədə bəhs edəcəyik.

**Qaynaqlar**

*AFA Şəki folkloru*. 23 cilddə, c .4. (2000). Bakı: Səda.

*AFA Borçalı-Qarapapaq folkloru*. 23 cilddə, c. 22 (2011). Bakı: Nurlan.

*AFA Gəncəbasar folkloru*. 23 cilddə, c. 9. (2004). Bakı: Səda.

*AFA Naxçıvan nümunələri*. 23 cilddə, c. 23. (2011). Bakı: Nurlan.

*Azərbaycan mifoloji mətnləri*. (1988). Bakı: Elm.

*Gədəbəy folklor örnəkləri*, c. 1. (2016). Bakı: Elm və təhsil.

*Qarabağ: folklor da bir tarixdir*, III kitab. (2012). Bakı: Elm və təhsil.

*Qarabağ: folklor da bir tarixdir*, IV kitab. (2013). Bakı: Elm və təhsil.

*Qarabağ: folklor da bir tarixdir,* V kitab. (2013). Bakı: Zərdabi LTD.

*Qarabağ: folklor da bir tarixdir*, VI kitab. (2013). Bakı: Zərdabi LTD

RÜSTƏMZADƏ, İ. (2013). *Azərbaycan nağıllarının süjet göstəricisi*. Bakı: Elm və təhsil.

XƏLİLOV, R. 2006). *Şamaxı bölgəsindən toplanmış folklor örnəkləri*. Bakı: AMEA Folklor İnstitutunun Arxivi.

Şəki Folklor örnəkləri, II cild. (2014). Bakı: Elm və təhsil.

ВЕДЕРНИКОВА, Н.М. (1972). Контаминация как творческий прием в вольшебной сказке. Русская народная проза. т. XIII. с. 148-159.